Səh. 2 Mövzu monopoliyası – Azər Musaoğlu

Səh. 5 Qadağalarla avropalı ola bilmərik! – Esmira Ələkbərli

Səh. 6 İnsanı çətinliklər gücləndirir – Aytən Fətullayeva

Səh. 6 Yaşamaq lazımdır! – Alina Fətullayeva

Səh. 3 Güvənə bilmək – Hacı Bəkiroğlu

Səh. 4 SON 7 İL ƏRZİNDƏ MƏKTƏBLƏRDƏ İŞLƏ TƏMİN EDİLƏN GƏNCLƏRİN SAYI 2000-İ KEÇMİR

Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 DEKABR 2023-CÜ İL № 024 (195)

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*


## MİLYARDER BİDZİNA İVANİŞVİLİ SİYASƏTƏ QAYITDI



Dekabrın 30-da Tbilisidə hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" Partiyasının qurultayı keçirilib. Qurultayda 350 nümayəndə iştirak edib.

Qurultayda partiyanın fəxri sədri vəzifəsi təsis edilib və bu vəzifəyə partiyanın təsisçisi, milyarder iş adamı Bidzina İvanişvli seçilib. Bununla da B.İvanişvilinin növbəti dəfə rəsmi şəkildə siyasətə qayıtması təsdiqlənib.

Həmçinin qurultayda partiyanın siyasi şurasının tərkibi təsdiqlənib və nizamnaməsinə dəyişiklik edilib. Siyasi şuranın üzvlərinin sayı partiyanın sədri ilə yanaşı 15 nəfər olaraq müəyyənləşib. Şuraya Baş nazir İrakli Qaribaşvili, partiyanın baş katibi, Tbilisinin meri Kaxa Kaladze, parlamentin sədri Şalva Papuaşvili, partiyanın parlament fraksiyasının rəhbəri Mamuka Mdinaradze, mədəniyyət, idman və gənclər naziri Tea Tsulukiani, daxili işlər naziri Vaxtanq Qomelauri, Acarıstan Muxtar Respublikasının hökumət sədri Tornike Rijvadze, parlamentin birinci vitse-spikeri Gia Volski, vitse-spikerlər Arçil Talakvadze, İrakli Çikovani, Dmitri Samxaradze, Xarici Əlaqələr kommitəsinin sədri Nikoloz Samxaradze, hüquqi məsələlər komitəsinin sədri Anri Oxanaşvili, iqtisadiyyat nazirinin müavini Mariam Kvrivişvili, Avropaya İnteqrasiya komitəsinin sədri Maka Boçorişvili daxildir.

B.İvanişvili jurnalistlərə müsahibəsində fəal siyasətə qayıtdığını bəyan edib. O, jurnalistlərə ilk müsahibəsində bəzi məsələlərə də aydınlıq gətirib.

Partiyanın fəxri sədri bildirib ki, onun siyasətə qayıdışı ilə əlaqədar Gürcüstan hökumətinin tərkibində və partiya daxilində dəyişiklik olmayacaq: "Mən Baş nazir vəzifəsi üçün namizəd olmayacağam. Baş nazir dəyişməyəcək. Nazirlər də öz postlarında qalacaqlar".

Onun sözlərinə görə, "Gürcü arzusu" bu gün 60 faizə qədər real reytinqə malikdir və partiya 2024-cü il seçkilərində qalib gələcək.

"Gürcü arzusu" 2024-cü il seçkilərində mütləq qalib gələcək. Biz 2012-ci ildən bəri izlədiyimiz xətti gedəcəyik, ölkəmizi 2030-cu ilədək Avropa İttifaqına üzv edəcəyik, insan haqlarını mümkün qədər yaxşılaşdıracağıq", – deyə B.İvanişvili bildirib.

## BAŞ NAZİR: GÜRCÜSTAN İQTİSADİYYATI SON 11 İLDƏ ÜÇ DƏFƏ ARTIB



Baş nazir İrakli Qaribaşvili hökumətin illik hesabatı zamanı son 11 ildə Gürcüstan iqtisadiyyatının güclü inkişaf yolu keçərək üç dəfə artdığını deyib.

Onun sözlərinə görə, 2012-ci ildə Gürcüstanda ümumi daxili məhsul (ÜDM) istehsalı 27 milyard lari olub. Bu il isə həmin rəqəm 80 milyard lari təşkil edib.

Hökumət başçısı deyib ki, həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində 2024-cü ildə ölkədə ÜDM istehsalı 86 milyard lari həcmində proqnozlaşdırılır.

Baş nazir bildirib ki, 2012-ci ildə ölkənin dövlət büdcəsi 8 milyard 500 milyon ları idi, hazırda bu rəqəm 20 milyard lariyə çatır.

## MÜDAFİƏ NAZİRİ: HAVA HÜCUMUNDAN MÜDAFİƏ BAXIMINDAN GÜRCÜSTAN REGİONUN ƏN GÜCLÜ DÖVLƏTLƏRİNDƏN BİRİNƏ ÇEVRİLƏ BİLƏR



Gürcüstan yaxın illərdə hava hücumundan müdafiə baxımından regionun ən güclü dövlətlərindən birinə çevrilə bilər. Bunu Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze deyib.

Onun sözlərinə görə, nazirliyin müdafiə departamenti İspaniya, Polşa və İsveç şirkətləri ilə hava hücumundan müdafiə silahları alınmasına dair müqavilələri imzalayıb. Son iki-üç il ərzində bağlanan müqavilələrə əsasən ölkənin müdafiə qüvvələri mərhələli şəkildə həmin silahları qəbul edəcək. Müqavilələrin şərtlərinə görə, silah alınmasının əsas hissəsi 2025-ci ildə tamamlanacaq.

C.Burçuladze bildirib ki, bununla yanaşı, yerli istehsal da prioritet istiqamətlərdəndir: "Əgər biz zireh və dəbilqə istehsalında bir neçə il geridə idiksə, indi istehsalı 2-3 dəfə artırmışıq və artıq heç bir gecikməmiz yoxdur. Müdafiə Qüvvələrinin tələbatı bir il ərzində tam ödəniləcək".

Nazir deyib ki, Gürcüstan Müdafiə Nazirliyinin ölkənin müdafiə qabiliyyətini artırmaq üçün satınalmaları sayəsində iki ildən sonra Tbilisi üzərində səma tamamilə qorunacaq. Paytaxt səmasının hər üç eşalonu, o cümlədən strateji obyektlər – aeroportlar, hərbi bazalar hava hücumundan müdafiə olunacaq.



# MÖVZU MONOPOLİYASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Adam bilmir nədən yazsın, haradan başlasın ki, təkcə Allaha yox, bəndəyə də xoş gəlsin; təkcə düşmənin xətrinə dəyəsən, dostun da yox. İndi hansısa problem haqqında yazanda, danışanda, müzakirə edəndə təkcə problemi yaradanı özünə düşmən etmirsən, üstəgəl bonus olaraq eyni problem haqqında yazan, danışan, müzakirə edənlər də sənə potensial düşmən olurlar. Yəni eyni cəbhədə eyni düşmənə qarşı çiyin-çiyinə vuruşduğun əsgər yoldaşın, silahdaşın sənin səngərdən çıxıb hücuma keçməyinə imkan belə yaratmır, ya səni səngərdə tək qoyub özü tək irəliləyir, ya da arxandan səni vuraraq leşinin üstündən addayıb hücuma keçir. Elə bil müharibə millət, vətən, torpaq, bayraq, dil, yazı, eyni dəyərlər uğrunda deyil, ad, medal, mükafat, heykəl uğrunda gedir.

İndi bütün mövzular monopoliyaya alınıb, inhisar edilib. Məsələn, sən erkən evlilik haqqında yaza, danışa bilməzsən, çünki bu mövzu başqasınındır, erkən evlilikdən təkcə o adam danışmalıdır, bu mövzu ilə bağlı təkcə onu verilişlərə dəvət edə bilərlər, tədbirlərə çağıra bilərlər, təkcə o bu problemin həlli ilə məşğul ola bilər, qrantlar ala bilər, təkcə onun adı erkən evlilik ifadəsi ilə sinonim ola bilər. Və yaxud da sənin ağzın nədir ki, təhsil problemini işıqlandırasan, məktəblərdən, müəllimlərdən danışasan, təhsil sistemini, nazirliyi tənqid edəsən. Bu mövzunun da öz inhisarçısı var, ya gərək yazında və söhbətində onun da adını çəkəsən, ondan sitatlar gətirəsən, ya da mövzuya girişmək üçün hallalıq alasan ki, özünə əlavə düşmən qazanmayasan. Hətta hansısa deputatı belə tənqid edə və ya söyə bilməzsən, bir də gördün tənqid etdiyin və ya söydüyün deputat dura-dura həmin deputatı tənqid etməyi və söyməyi inhisar etmiş biri cavabını elə verdi ki, yetirmişin dura-dura kalın töküldü.

Hələ elələri də var bir neçə mövzunu öz monopoliyası altına alıb. Məsələn, din, ateizm, milli-mənəvi dəyərlər – üçü birində. Beləläri öz monopoliyalarını daha yaxşı qoruyub-saxlayırlar. Başqası din mövzusuna girişəndə onu mövzudan kənarlaşdırmaq üçün ateist kimi, milli-mənəvi dəyərlərdən danışana liberal kimi hücum edirlər və yaxud da əksinə. Bir sözlə, bizdə qoç qəbirüstü abidələrindən tutmuş kəsilən qoçların hüquqlarına, erkən evlilikdən tutmuş erkən sözünün iştirak etdiyi ifadələrin olduğu bütün mövzulara, uşaq bağçalarından tutmuş qocalar evinin olmamasına, tövləyə oxşayan məktəblərdən tutmuş "1+4" proqramına, etnik azlıqdan tutmuş etnik bazlığa qədər, inteqrasiyadan tutmuş assimilyasiyaya qədər və sair, və ilaxır, bütün mövzular, problemlər monopoliya olunub.

Mövzular bir yana, bizdə peşələr də, ixtisaslar da, xobbilər də (varsa təbii), fəaliyyət də monopoliyadadır. Məsələn, biri şeir yazırsa hamı onun şeirini oxumalıdır, yalnız və yalnız o öləndən sonra başqaları da şeir yaza bilərlər. Biri aktyorluq edirsə hamı ona tamaşa etməlidir, başqaları yalnız onun istəyi ilə tamaşada oynaya bilər, o da epizodik rollarda. Biri müəllimdirsə hamı şagird olmalıdır, baxmayaraq ki, məktəblərdə kadr çatışmır, idmandan tutmuş ədəbiyyata, kimyaya, riyaziyyata qədər yalnız o "tədris" etməlidir. Biri jurnalistdirsə televiziyada da, radioda da, qəzetdə də yalnız o olmalıdır. Biri aktivistdirsə qalan hamı passivist olmalıdır və sair.

Bizim bu monopoliya aludəçiliyimiz həm də bölgə maştabındadır. Məsələn, biri Qardabanidə dil kursları açıbsa, başqa bölgədən gəlib Qardabanidə dil kursları açmaq yazılmamış qaydalara uyğun deyil. Və ya Marneulidə fəaliyyət göstərən hansısa təşkilat başqa bölgələrdə fəaliyyət göstərə bilməz, bilsə də gərək eyni inhisarçının əli ilə idarə oluna və sair.

İndi qalmışıq belə, bütün mövzular, problemlər, bölgələr kimlərinsə monopoliyasındadır. Bugün-sabah hərə bir mövzunu, problemi, bölgəni potentləşdirsə təəccüblənməyin.

Belə ki, möhtərəm mövzu inhisarçıları, arada qrantlarınızı bağlayın ki, başqalarına da su çatsın. Axı israfın da vaxtı İsrafilin surunun vaxtına kimidir, heç nə əbədi deyil.

## TÜRKİYƏ GÜRCÜSTANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞLARI ARASINDA BİRİNCİ YERDƏDİR




Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2023-cü ilin yanvar-noyabr ayları ərzində ölkənin xarici ticarət dövriyyəsi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 14,7 faiz artaraq 19,6 milyard dollar təşkil edib.

Məlumata görə, hesabat dövründə idxalın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 16,1 faiz artaraq 14 milyard dollar olub. İxracın həcmi isə 5,6 milyard dollar təşkil edib, bu da 2022-ci ilin 11 ayı ilə müqayisədə 11,1 faiz çoxdur.

Hesabat dövründə Gürcüstanın xarici ticarət dövriyyəsində 8,4 milyard dollarlıq mənfi saldo yaranıb. Ölkə ən çox mis filizləri və konsentratları, üzüm şərabları, spirtli içkilər, mineral sular, avtomobillər, azot gübrələri, dərmanlar və s. ixrac edib. İdxal olunan mal və məhsullar içərisində neft və neft məhsulları, minik avtomobilləri, təbii qaz, elektrik enerjisi, smartfonlar və telefon aparatları üstünlük təşkil edib.

Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşları arasında birinci yerdədir. Yanvar-noyabr aylarında Türkiyə ilə xarici ticarət dövriyyəsi 2,7 milyard dollara (ümumi ticarət dövriyyəsinin 13,8 faizi) yüksəlib. Rusiya 2,1 milyard dollarla ikinci, ABŞ 1,8 milyard dollarla üçüncü, Çin 1,5 milyard dollarla dördüncü, Azərbaycan isə 1,3 milyard dollarla beşinci yerdə qərarlaşıb.

## GÜRCÜSTAN-AZƏRBAYCAN SƏRHƏDİNİN DELİMİTASİYASININ 70 FAİZİ RAZILAŞDIRILIB



Gürcüstan-Azərbaycan sərhədinin delimitasiyası işlərinin 70 faizi artıq razılaşdırılıb. Bunu Gürcüstan parlamentinin Xarici Əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze Gürcüstanın Azərbaycan və Ermənistandakı səfirlərinin iştirakı ilə keçirilən komitə dinləməsindən sonra jurnalistlərə açıqlamasında deyib.

"Gürcüstan-Azərbaycan sərhədinin delimitasiyasına gəlincə, sərhədin təxminən 70 faizi razılaşdırılıb. Qalan 30 faizin razılaşdırılması üzərində iş gedir. Ancaq delimitasiya prosesi belədir ki, 100 faiz razılaşana qədər heç bir delimitasiya müqaviləsi imzalanmır. Müvafiq olaraq bizdə inkişaf var və yavaş-yavaş irəliləyirik. Bu prosesin nə vaxt başa çatacağını deyə bilmərəm, baxmayaraq ki, bizim dost və strateji tərəfdaşımız olan Azərbaycanla bu gün qurduğumuz əlaqələrə əsaslanaraq müsbət gözləntilərimiz var", – Nikoloz Samxaradze deyib.

## GÜRCÜSTANDA HÜQUQİ ŞƏXSLƏRƏ SİYASİ PARTİYALARI MALİYYƏLƏŞDİRMƏK QADAĞAN EDİLİB



Gürcüstanda hüquqi şəxslərin siyasi partiyaları maliyyələşdirməsini qadağan edən qanun qüvvəyə minib.

"Yeni Yol" "Sputnik Qruziya"ya istinadən xəbər verir ki, bundan sonra hüquqi şəxslər siyasi partiyalara ianələr ayıra bilməyəcək və ianə formasında xidmətlər də təqdim edə bilməyəcəklər.

Qanuna görə ianə yalnız fiziki şəxslər tərəfindən maddi və ya qeyri-maddi ödəmə və ya xidmətlər sayılacaq. Bununla bərabər siyasi partiyalar yalnız Gürcüstan vətəndaşlarından ianə ala biləcəklər ki, onun da maksimal həddi fiziki şəxslər üçün ildə 60 min lari (22,3 min dollar), partiyaya üzvlük haqqı kimi isə ildə 1,2 min lari (446 dollar) məbləğində müəyyən edilib.

Qadağa mühazirələrin, seminarların və digər ictimai tədbirlərin keçirilməsinə aid deyil.

# QADINLARIN QİYAMI



Tarix qadını doğum, məhsuldarlıq tanrıçası məqamına qədər yüksəltsə də, onun o yüksəklikdən endirilməsinin də müəllifi olmuşdur. Hələ ibtidai cəmiyyətdə qadın bu ikili münasibətlə üzləşmiş, bir tərəfdən tanrıçalıq mövqeyi qazansa da, digər tərəfdən qurbanlığa çevrilmişdir. Qəbilənin ən gözəl qızı, elə ən gözəgəlimli oğlu da qurbanlıq seçilmiş, bu və ya digər tanrının lütfünü qazanmaq üçün qurban verilmişdir.

Oğlanlardan fərqli olaraq, qızları daha bir acı tale də gözləyirdi. Belə ki, qəbilənin əsas qida təminatçısı olan ovçu kişilər qəbilə üçün artıq yük, boğazortağı hesab etdikləri qızların sayını nəzarət altında saxlayır, onları bu və ya digər yollarla məhv edərək demoqrafik tarazlığı tənzimləyirdilər. Yeni doğulmuş qız uşaqlarının diri-diri torpağa gömülməsi geniş yayılmış yöntəmlərdən biri idi.

Bəlkə də qadınların kişilərə nifrətinin ilk əlamətləri patriarxallığın başlanğıcından formalaşıb? Əslində, bunun kökləri daha əski çağlara gedib çıxmalıdır. O çağlara ki, orada dünyaya qız gətirmiş qadının ana istəyinə məhəl qoyulmadan onun qız övladı ya qurbanlıq, ya da demoqrafik balansı qorumaq adıyla məhv edilirdi. Orası da var ki, ananın oğlunu da qurbanlıq kimi seçə bilərdilər. Bu aktlar nə qədər qəbilə, icma adətləriylə qaydaya salınsa da, toplumu aclıqdan qorumağa xidmət etsə də, ananı baladan ayıran bir fakt idi. Ana ağlıyla bu gerçəkliyi qəbul edə bilsə də, ürəyində bütün bunlara nifrət etməli idi. Təhtəlşüur olaraq, övladının məhvinin suçlusunun kişilər olduğuna özünü inandırmalı və bu inam ona istəməsə belə əks cinsə qarşı nifrət qazandırmalı idi.

Cəmiyyətdə kişilərin rolunun artması, onların tez-tez müharibələrdə iştirakı, bu müharibələrdən əlidolu, qənimətlə qayıtmaları kişilərin əvəzolunmazlığı, göydəndüşməliyi fikrini formalaşdırmış, onların ailədə və toplumda üstünlüklərini, hökmranlıqlarını təmin etmişdir. Ovçu kişinin qadının köməyinə az-çox ehtiyacı vardısa, döyüşçü kişinin buna ehtiyacı qalmırdı. O, bütün sahələrdə üstün, hökmran mövqelərini hər imkanda möhkəmləndirirdi. Bu hökmranlıq ailə üzvləri üzərində də özünü göstərməli idi. Ailədə hamının ona tabe olması tələbi getdikcə daha da sərtləşdirilir, digər ailə üzvlərinin hüquqlarının məhdudlaşdırılması hesabına kişinin hüquqları qeyri-məhdudluq qazanırdı. Üstəgəl savaşlarda qənimət kimi ələ keçirilmiş qadının üzərində kişinin hökmranlığının izahına da ehtiyac qalmır. Qadına soyu davam etdirəcək oğlanlar doğmaq qaynağı kimi baxılırdı, doğulmuş qız uşaqlarının nəslin davamçısı kimi qəbul olunması mümkün deyildi.

Hər savaşdan qalib kimi dönən savaşçının qənimətləri arasında qadınların sayı arta bilirdi, həmin qadınlar kişinin şəxsi mülkiyyətinin bir parçasına çevrilirdi. Qadının hüquqları kişiyə məxsus olurdu. Qadın fiziki baxımdan kişiyə məxsus bir əşya dəyərində idisə, onun mənəvi aləmi də kişiyə məxsus idi. Kişinin cızdığı çərçivədən kənara çıxmaq qadının məhvi ilə nəticələnirdi. Məhz bu gün baş verən qadın qətllərinin kökünü burada axtarmalıyıq. Qadına bu cür münasibətin tarixin dərinliklərində formalaşmasını dilə gətirməliyik. Qiymətli əşyalarının – silahının, atının, evinin yalnız özünə məxsusluğu fikrini qafasında oturuşdurmuş döyüşçü qadın(lar)ını kiminləsə bölüşə bilərdimi?

Qadına əşya münasibəti bəsləyən döyüşçünün bütün istəklərini, o cümlədən də cinsi-şəhvani istəklərini qadının təmin etməsi yazılmamış qanuna çevrilir və bu məqamda qadının bütün bunları edib-etməmək kimi bir istəyini nəzərə almaması kişinin müstəsna hüququ idi.

Qadınların alt şüurunda kişilərə nifrətin toplanması, bu nifrətin feminizm şəklində üzə çıxması dünənin, srağagünün məsələsi deyil. Bu proses kişilərin cəmiyyətdə dominantlıq qazandığı, özlərinə üstünlük təmin etdikləri zamanlardan başlamış, son dönəmlərdə feminizm adıyla daha da şiddətlənib, kişilərə qarşı üsyan, qiyam kimi görünməyə başlamış, geriyə dönüşü olmayan hal almışdır.

Tarixi prosesin cinslərarası müstəviyə daşınması qadın qətllərinin, qadın intiharlarının sayını artırmış və bu statistika hər ötən gün daha da ətə-qana dolmaqda, şişməkdədir. Artıq qadın kişinin şəxsi mülkiyyətinin bir parçası olmağı, onun cızdığı sərhədləri qəbul etməyi ağlının ucundan da keçirmir. Hər ötən gün bu sərhədlər qadınlar tərəfindən daha intensiv şəkildə pozulmaqdadır. Daha mühafizəkar cəmiyyətlərdə zorən örtünmüş qadınlar belə kişilərə qarşı radikal mövqe tutmaqda, öz qəfəslərini qırıb-dağıtmaqda, barışmazlıq nümayiş etdirməkdədirlər.

Ömür yoldaşı və ya həyat yoldaşı adlandırdığımız qadının tələblərinin haqlılıq dərəcəsindən asılı olmayaraq, kişinin onu qəbul etməsi labüddür. O üzdən ki, qanunlar da bu tələblərin doğruluğunu təsdiqləyir. Bəzən bunun kişinin qadın qarşısında məğlub olması, ağ bayraq qaldırması kimi yozulması məsələni daha da qəlizləşdirir. Tarixin dərinliklərində qadına qarşı formalaşdırılan tələblər sabaha keçirilərək yeni qadın qətlləri ilə davam etdirilir.

Problemin ən sadə çözümü isə kişinin qadına insan kimi yanaşmasında, qadının bu yanaşmanı ifrat dərəcədə tələb etməməsi ilə bağlıdır. Bir atlının bir yayaq adamla görüşü necə baş tutur? Atlı bir az aşağı əyilir, yayaq ayağının ucunda yuxarı qalxır. Məncə, məsələnin ən bəsit həll variantı burada gizlənib. Siz necə düşünürsünüz?

**Afiq Muxtaroğlu**

# GÜVƏNƏ BİLMƏK



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

Güvənmək insan həyatında böyük əhəmiyyət kəsb edən bir duyğudur. İnsanlar arasındakı əlaqələrdə, dialoqlarda güvənmək açar hökmü daşımaqdadır desək yanılmarıq yəqin ki.

Elə hallar olur ki, birinə olan etibarsızlığımız, güvənsizliyimiz bizə çox əziyyət verir. Halbuki qarşıdakı insan etibarlı olamasa belə, güvənə bilmək bir duyğu olaraq yenə də gözəldir. İndiki zamanda isə zərurət olduğu zamanlarda və yalnız ehtiyac ölçüsündə kimlərəsə güvənirik, yəni ki məcburiyyətdən. Bu səbəblə etimad duyğularımız səmimi bir etibarla tamamlanmağa möhtacdır. Necə ki güvən, yalnız “çox yaxşı” dediyimiz insanlara qarşı duyduğumuz bir hissdir bu gün. “Həqiqətən yaxşı” insanların azlığı, özümüz də daxil olmaqla ictimai bir etibarsızlığa səbəb olmaqdadır. Buradan da belə anlaşılır ki, güvən reallaşdığında sevindiyimiz bir ümiddir yalnız.

Güvən duyğusu yerini etibarsızlığa buraxdıqda bu duyğu, daha dəqiq desək, etibarsızlıq duyğusu, cəmiyyət olaraq yaxşılığa nə qədər möhtac olduğumuzun bariz bir göstəricisidir.

Güvənilən və ya güvənsiz insan olmağımız əslində bizim səmimi olub-olmamağımızın bir göstəricisidir. Burada da yenə iki cahan günəşi olan həzrət Peyğəmbərdən ibrət dərsi almalı oluruq. Hələ peyğəmbərliyindən öncə “Muhammədul-Əmin” olaraq bilinməsi bizim üçün böyük bir dərs mahiyyətindədir. Belə bir Peyğəmbərin ümməti olaraq əmin olmaq xüsusiyyətlərimizin əxlaqi anlayışımızda və yaşayışımızda əsas yeri alması qaçınılmaz görünməkdədir. Güvən duyğusu ortadan qalxsa hər şey qalxar.

Bu gün ictimai pozğunluqların gətirdiyi, istismardan uzaq təmiz cəmiyyət axtarışları fərdlərin bir-birinə olan güvən ehtiyacını ruhi aclıq ölçüsündə zəruri etməkdədir. Əks halda, heç kim bir başqasına öz dərdini izah edə bilməyəcək hala gələcək. Qonşuluq əlaqələrindən tutmuş, ana-ata və övlad hüququna, iqtisadi əlaqələrə, evlilik müəssisəsinə, siyasi və administrativ sistemə qədər, həyatı şəkilləndirən bütün mövzularda tam bir keşməkeş və çətinlik qaçınılmaz görünməkdədir.

Qeybət, böhtan və dedi-qodu da etibarsızlıq mühitinin həm işarələri, həm nəticələridir. Xoşgörüş duyğusu olmasa artıq xoşgörüş göstərəcək insan da qalmaz ətrafımızda. Ona görə Mövlana demişdir: “Səhvsiz dost axtaran dostsuz qalar”. Etibarsızlıq duyğusu təkliyə itələyər insanı. Yaxşıdırsa yaxşılığıyla, pisdirsə pisliyiylə baş-başa buraxar insanı. Postmodernist bir keyfiyyətin əsiri olaraq nəticədə. Belə bir mühitdə də yaxşılığı əmr edib, pislikdən çəkindirmək xüsusiyyətimiz funksional ola bilməz. Çünki yox edilən, həm də öz əlimizdə yox etdiyimiz şey islamın camaat anlayışı olmaqdadır. Necə ki belə mühitlərdə heç kimsə kimsəni dinləməz. Nə üçün dinləsin ki, güvənmədiyi insanı!.. Bax, o zaman, obyektiv doğrulardan nəsiblənmək şansımız da nəsibsizliyə aparar bizi.

Əsas olan özümüzə yaxşı insan olmağı həqiqətən istəyib istəmədiyimizi sorğulamaqdır. Buna qərar vermişiksə, o zaman bunun bizim üçün bir çox şey ifadə etdiyini görəcəyik. O zaman qarşımızda, talib olduğumuz şeyin gözəlliyi özünü göstərəcək. O zaman kainatdakı hər rəng, hər səs və hər naxış bizə də yaradıldığı kimi gözəl görünəcək.

# SON 7 İL ƏRZİNDƏ MƏKTƏBLƏRDƏ İŞLƏ TƏMİN EDİLƏN GƏNCLƏRİN SAYI 2000-İ KEÇMİR



Gürcüstan Təhsil və Elm Nazirliyinin sifarişi ilə aparılan araşdırmaya görə, müəllim hazırlığı proqramlarını bitirənlərin böyük hissəsi yaxın 10 ildə müəllim kimi işlə təmin oluna bilməyəcək. Bu vəziyyət uzunmüddətli perspektivdə, xüsusilə, nisbətən yüksək qabiliyyətə malik gənclər arasında müəllimlik peşəsinə marağın azalmasına səbəb ola bilər.

Milli Araşdırmalar Mərkəzinin tədqiqat çərçivəsində araşdırdığı sahələrdən biri müəllimlik peşəsinə daxil olmaqdır və nəticələrdə müəllimlik peşəsinə qəbulla bağlı qaydalar, təcrübələr, müəllim və direktorların münasibəti, baxışları müzakirə olunub.

Tədqiqat nəticəsində müəyyən edilib ki, müəllimlərin əmək bazarında kəskin tələb-təklif balansının pozulması mövcuddur: təklif yüksək, tələb isə aşağıdır. Hesabata görə, bu vəziyyətə iki amil səbəb olur: pensiya yaşında olan müəllimlərin sistemi tərk etməməsi və müəllim olmaq istəyənlərin sayının çoxalması. Nəticədə məzunların işlə təmin olunma imkanları azalır.

*"Gənc müəllimlərə məktəblərdə işləmək imkanı verməli olan, müəllimlərin təqaüd mükafatı şəraitində belə, son 7 ildə məktəblərdə işləyən gənclərin sayı 2000 nəfəri keçmir, ümumilikdə isə məktəbdə yaşı 30-a qədər olan müəllimlər cəmi 4 % təşkil edir",* – dekabrın 20-də yayımlanmış araşdırmada qeyd olunub.

Hesabatda gənclərin tez-tez qeyd etdiyi işlə təmin etmə problemi də yer alıb. Sənəddə qeyd olunub ki, məktəb kadrları təcrübəsi də gənc müəllimlərin işlə təmin edilməsi imkanlarına mənfi təsir göstərir. Xüsusilə vakansiyalar zamanı tərəzi hansısa məktəbdə işləyən və ya təcrübəli müəllimin xeyirinə əyilir.

*"Bunun iki mümkün səbəbi ola bilər: a) məktəbdə düzgün kadr siyasəti və mexanizmləri yoxdur, ona görə də müəllimlərin obyektiv qiymətləndirilməsi təmin edilmir və b) direktorlar təcrübəli müəllimlərə üstünlük verirlər ki, bu da qismən gənc müəllimlərin (dərs keçmək) səriştəsinin az olması ilə əlaqələndirilir. Bu vəziyyətdə bir tərəfdən universitet proqramlarının keyfiyyəti sual altına düşür. Digər tərəfdən, direktorların müəllim seçimi prosesində müəllimin əsas səriştəsi kimi dərsin keçirilməsinə xüsusi önəm verməsi baş müəllim statusu almaq üçün ilkin şərtlərdən xarici sinif müşahidəsini çıxarmaq qərarının əsaslılığı ilə bağlı suallar doğurur",* – araşdırmada yazılıb.

Belə çıxır ki, baş müəllim üçün kənar dərs müşahidəsi olmayan dəyişiklik bəlkə də düzgün qərar deyildi.

Digər tərəfdən, tədqiqat həm də bu gün sistemdə olan həmin fənlər üzrə müəllim çatışmazlığını müəllimlik peşəsinə daxil olmaq baxımından izah etməyə çalışır və dəqiq, təbiət fənlərində kəskin şəkildə müəllim çatışmazlığının gözlənildiyini izah edir. Çünki başqa fənlərdən fərqli olaraq müəllimlərin 300 kreditlik, eləcə də 60 kreditlik hazırlıq proqramlarına qəbul aşağıdır.

Bu halda da qeyd olunub ki, 70 yaşdan yuxarı olan müəllimlərin sayı çoxdur. Fizika müəllimlərinin 41 %-i, kimya müəllimlərinin 33 %-i, biologiya müəllimlərinin 30 %-i pensiya yaşındadır.

Yəqin ki, Gürcüstanda akkreditasiya olunmuş universitetlərin və ali təhsilin maliyyələşdirilməsi ilə bağlı yeni qaydaların hazırlanmasında iştirak edənlər üçün hesabatda tələbə qəbulu ilə bağlı verilən tənqidi qiymət diqqətəlayiq olmalıdır və orada deyilir ki, universitetlər müəyyən edilmiş akkreditasiya şərtlərindən birini pozur: *"Təhsil proqramları üçün elan edilmiş yerlərin sayı və fənlər üzrə bölgüsü müəllimlərin əmək bazarındakı vəziyyətini əks etdirmir – aşağı perspektivləri olan proqramlara qəbul yüksəkdir və əksinə, çatışmayan fənn müəllimləri üçün təlim proqramlarına qəbul azdır. Bu vəziyyət ali təhsilin maliyyələşdirilməsi modelinin mövcud çatışmazlıqları ilə bağlıdır – universitet onların işlə təmin edilmək imkanlarından və onların hazırlığı üçün lazım olan resurslardan asılı olmayaraq, mümkün qədər çox tələbə qəbul etməyə həvəslidir".*

Araşdırmanın nəticəsinə görə, universitet proqramları üzrə tələbə qəbulu siyasətinin əmək bazarının tələblərindən belə nəzərəçarpacaq dərəcədə uzaqlaşma onu göstərir ki, universitetlər proqramlar hazırlayarkən əmək bazarının tələblərini nəzərə almırlar/əmək bazarının tələblərini gözə ala bilmirlər ki, bu da akkreditasiya şərtlərindən birinin pozulmasıdır. Lakin eyni zamanda, ehtimal olunan səbəbi açıqlayır və ali məktəb məzunlarının hazırlıq səviyyəsi ilə bağlı olan daha ciddi problemə diqqət yetirir: *"Bunun səbəblərindən biri tələb və təkliflə bağlı məlumatların aşağı olması ola bilər. Müəllim hazırlığı proqramlarına daxil olan tələbələrin universitetə hazırlığı son dərəcə aşağıdır. Bu proqramlar tələbələrin vahid milli imtahanlarda əldə etdikləri nəticələrə görə bütün digər akademik proqramlardan geri qalır. Tələbələrin akademik hazırlığının aşağı olması onların yüksək ixtisaslı müəllim kimi yetişdirilməsinə mənfi təsir göstərir, çünki təlimin nəticələri əhəmiyyətli dərəcədə tələbələrin akademik hazırlığı ilə müəyyən edilir".*

# MƏKTƏBDƏ İŞLƏYƏN 754 MENTOR MÜƏLLİMDƏN YALNIZ 24-Ü TƏDRİS RƏHBƏRLİYİ İLƏ BAĞLI VƏZİFƏ TUTUR

"Müəllimlərin peşəkar yüksəliş kanalları effektiv deyil və məktəbin ehtiyaclarına uyğunlaşdırılmır, aparıcı və mentor müəllimlər isə təlimat liderliyi standartında təsvir olunan funksiyaları qismən yerinə yetirir və ya heç yerinə yetirmirlər", – müəllim sxeminin qiymətləndirilməsi ilə bağlı araşdırmada yazılıb. Araşdırmanı Təhsil Nazirliyinin sifarişi ilə Milli Təhsil Araşdırmaları Mərkəzi aparıb.

Karyera yüksəlişi ilə bağlı əsas nailiyyətlərdən birinin mənbəyi məktəb direktorlarıdır və Maia Miminoşvilinin rəhbərlik etdiyi idarə tərəfindən dərc edilmiş tədqiqat hesabatında qeyd edildiyi kimi, direktorlar sxemlə verilən statusun məktəbdəki müəllimin roluna uyğun gəlməməsindən narahat olduqlarını bildirirlər.

"Respondentlərin ifadə etdiyi bu fərziyyə kəmiyyət tədqiqat məlumatları ilə təsdiqlənir. Bu gün məktəbdə işləyən 754 mentor müəllimdən yalnız 24-ü (3,2 %) və 9022 aparıcı müəllimdən yalnız 241-i tədris liderliyi ilə bağlı vəzifə tutur (məsələn, kafedra müdiri). Qeyd olunmalıdır ki, tədrisdə rəhbər vəzifələrində 854 baş və 241 statusu olmayan müəllim çalışır", – deyə hesabatda qeyd olunub.

Araşdırmada təhsil və elm nazirinin dəfələrlə dilə gətirdiyi, müəllimlərin sxemə qoşulma motivasiyasına istinad edən məlumatlara rast gəlirik və müəllimlərin bu sxemə qoşulmasında əsas motivasiyanın əməkhaqqı olduğu bildirilir: "Müəllimin status qazanması üçün əsas motivasiyanın nədən ibarət olduğunu soruşduqda müəllimlərin 60 %-i, direktorların 63 %-i adları çəkilən 5 məqsəddən birincisi kimi əməkhaqqına əlavəni göstərirlər. Bundan əlavə, müəllimin statusu konkret öhdəliklərlə bağlı deyil".

Tədqiqatın nəticəsindən həmçinin müəyyən olur ki, müəllimlər status qazanmaq üçün çox vaxt sərf edirlər və səy göstərirlər. Bu halda isə şagirdlər diqqətdən kənar qalırlar. Kəmiyyət araşdırması çərçivəsində müəllimlərin əksəriyyəti bu sxemin müəllimi şagirdlərdən ayırmasından narazılıqlarını bildirirlər.



"Müəllimlərin ¾-ü və direktorların yarıdan çoxu "sxem müəllimlərdən çox şey tələb edir" ifadəsi ilə razılaşır. Həmçinin müəllimlərin və direktorların əksəriyyəti hesab edirlər ki, bu sxem müəllimləri dərs üçün lazım olan vaxtdan məhrum edir", – hesabatda bildirilir.

Aparılan tədqiqatın məqsədi müəllimlərin peşə inkişafı və karyera yüksəlişi sxeminin effektivliyini qiymətləndirmək, onun güclü tərəflərini və təkmilləşdirilməli olan sahələri müəyyən etmək, maraqlı tərəflər üçün mövcud problemlərin həlli yollarını təklif etməklə məlumatlı, sübuta əsaslanan qərarların qəbul edilməsinə dəstək olmaqdır. Tədqiqat çərçivəsində 18 müsahibə aparılıb. Çoxmərhələli seçmə prosedurundan istifadə etməklə kəmiyyət tədqiqatı üçün 662 məktəb seçilmişdir. Sorğuda ümumilikdə 6814 müəllim və 286 direktor iştirak edib.

*Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə Əliyeva**

# QADAĞALARLA AVROPALI OLA BİLMƏRİK!



İnsan beynində 14 milyarda qədər hüceyrə var deyirlər. Bu hüceyrələrin yaddaşı genetik olaraq ən azı yeddi nəsil geri ənənələri təkrarlaya bilir – biz hiss etmədən. Bizim xasiyyətimiz – psixoloji davranışımız öz kökümüzün inikasıdır. Müasir texnodillə desək, yaddaş kartında gizli fayllarda kimliyimiz yerləşib. Kimliyimiz faylında adətimiz, ənənəmiz, ləyaqətimiz, şərəfimizlə bərabər, xoş olmayan layiqsiz xüsusiyyətlərimiz də var. Ağıllı insanlar o layiqsiz hissələri zamanın müsbət çarxında əridərək daha yaxşı yollarla irəliləyərək cəmiyyətə inteqrasiya edir.

Gələk fikrimin məğzinə. Bu gün Gürcüstan sosial həyatında sanki ard-arda gələn həmin o faylın xoş olmayan ənənələri şəxsən məni yetərincə utandırır. Erkən evliliyin qatilliyə aparan nəticəsi yetərincə əks-səda verdi. İndi də qısqanclıq zəminində o yeddinci babanın "saç qırxmaq" ənənəsinin müsir video çəkməklə sintezi... Əlbəttə, ləyaqət, namus, şərəf – bunlar bizim genetikanın şah əsəridir. Deyərdim, namus sözünün heç bir lüğətdə qarşılığı yoxdur. Amma unutmayaq, hələ 1141-ci il doğumlu gəncəli Nizami demişdir ki, "bir inci saflığı varsa da suda..." Vallah, billah, şərəfin də, namusun da, ləyaqətin də artığı zərər verir.

İcazənizlə daha sadə dillə incələyim. Psixologiyada belə bir aksiom var, yəni əks variantı yoxdur. Onu ki beyninə yeridirsən, olmazı olar edir, yoxdursa yaradır, çünki sən ona fokuslanırsan. Son vaxtlar dəbdə olan bir söz var: kompleksim var.

Bax belə. Hələ əsrlər öncə nənələr deyərdi ki, mərdi qovub namərd etdilər. Bəli, əminəm, bunu məhz nənələr deyiblər. Ona görə ki, analar görürdü, uşağa nəyi qadağan edirsən onu etməyə çalışır, qadağalara can atır. Sonra da Ziqmund Freyd güya elmi kəşf etdi ki, insan bilmədiyi şeyin düşmənidir. Axı bunu bizim nənələr çoxdan bilirdi və atalara da çatdırmışdı.

Bax, biz uşağı uşaqlıqdan "xalxın uşağı" sindromu ilə böyüdürük, olmazların girdabında. Amandı, onu etmə, bunu etmə, o olmaz, bu olmaz... Bax, "xalxın uşağı" irəli getdi, sən qaldın... Özümüz də hiss etmədən bir yekə qaya daşını – psixoloji zərbəni yerləşdiririk onun həyat yoluna. Həmin daş da ona həyatı boyu mane olur. O qadağalar uşaqda o qədər maraq yaradır ki, etməyəcəkdisə etməyə çalışır – bəzən maraqdan, bəzən hikkədən, bəzən də oğru yadına saldığınız daşla. Ancaq onu həyatın mübarizə meydanına öz analizləri ilə buraxsaq, o, heç vaxt pis işlər etməyəcək, çünki özünü analiz edəcək və pis işlərdən çəkinəcək. Çünki o uşağın həmişə çəkindiyi bir "etibarını itirmək" qorxusu olacaq deyə özünü pis vərdişlərdən qoruyacaq, daim müsbət yeniliklər axtarışında olacaq. Nəinki uşaqlar, gənclər, eləcə də yetkin insanlar.

Elə deyək xəyanət mövzusu. Öz kobud, yersiz, bezdirici qısqanclıqları ilə həyat yoldaşında özünə qarşı nifrət yaradan insanlarda da bu eynən belədir. Bir psixologiya kursu məzunu kimi deyirəm. Sevdiyi insanı itirmək qorxusumu, qorumaq hissimi, yoxsa ətrafa inamsızlığımı adamı o həddə gətirir, bilmirəm. Bildiyim iki şey var: əgər o qadın (kişi) nəsə bir məqsədə can atırsa o, onu onsuz da edəcək, qəfəsdə olsa belə. Cavabdehlik hissi yoxdur, çünki onun seçiminin yanlış olduğunu əri (arvadı) öz kobud qısqanclıq adətləri ilə sübut edib.

Onlar istədikləri zaman bir-birini təhqir də edə bilərlər, hətta dəbdə olan "112 metodundan" da istifadə edə bilərlər, sonra da təzədən üzsüz şəkildə barışa da bilərlər və bu dövriyyə şəklində müəyyən həddə qədər gələ bilər.

İkincisi odur ki, o qadın (kişi) sevməsə belə özünü ailəsinə fəda edəcək – maddi, fiziki çətinlik çəksə də, çünki seçminin yanlış olmadığını əri (arvadı) öz mədəni, nümunəvi, insani xüsusiyyətləri ilə sübut edib. Ona böyük güvən göstərib o qədər etibarla, inamla yanaşır ki, həmin inamı, etibarı itirməmək üçün yaşayır. Çünki onlar heç vaxt bir-birini təhqir etməyiblər, əskiltməyiblər. Düşünürlər ki, elə bir şey ola bilməz, olsa həyat onlar üçün bitər. Ailəni qorumaq üçün də qarşılıqlı anlaşmayla həyat davam edir.

Bax o kəslər ki, qısqanclıq zəminində cinayətlər törədirlər onlar oğru yadına daş salırlar. Bəlkə də heç yada düşməyən variantları xatırladır, od olmayan yerdən tüstü çıxarmaqla ataş yaradırlar. O inamsızlıq həyat yoldaşını özündən uzaqlaşdırır, ailəsində görmədiyi qayğını, hörməti başqasında axtarır...

Həəə, Ziqmund Freyd bizim nənələrin sirkə nə qədər tünd olsa öz qabını çatlatdığını bildiklərini bilmirdi, hətta su qabı elə suda çatlayar...

Yəqin yaşlı nəslin yadında olar, sovet dönəmində din barədə heç bir mətbuatda yazılmazmış, amma dinimiz nə gözəl yaddaşımızda, əməlimizdə vardı. Heç yalançı mollalar, Allah adından danışan fırıldaqçılar, nəzir qutuları, pullu hacılar və s. görmüşdünüzmü. Onda da qurban kəsirdilər, namaz da qılırdılar, dindarlar da vardı, hamısı urvatlı. Niyə? Çünki tam sərbəstlik idi. Heç kimə qadağa qoymurdular ki, sən "xlorlu su ilə qüsl almısan, batildir".

Babam danışardı ki, biz molla məktəbində oxuyanda bir nəfər namaz qılırdı, deyirdi ki, ağ qoyun, qara qoyun, başımı yerə qoyum. Biz qaçıb mollaya xəbər verdik ki, o səhv deyir. Molla dedi: əgər ürəkdən deyirsə, Allah qəbul edər. Siz el hikmətinə baxın, Allahın adından vəkillik etməklə böyük bir inam və mərhəmət hissi təbliğ etdi. Bax belə...

Avropaya üzv olmağa hazırlaşırıq – içimizdə köhnə faylların saralmış qanunları ilə... Dedim axı, namus yalnız özümüzə məxsus qarşılığı olmayan kəlmə, nolar o kəlməni layiqsiz əməllərlə gözdən salmayaq. İnamınız yoxdursa, etibar etmirsinizsə, ən yaxşı halda ayrılın. Heç olmasa valideyni seçmək şansı olmayan uşaqlar "xasiyyəti tutmayıb" ayrılan valideyləri olduğunu bilsinlər, namussuz ana, cinayətkar atanın balaları olduğundan utanıb psixoloji zərbəylə böyüməsinlər.

O Freydlər bunları görmürdü, təsəvvür edirdi. Biz isə hamımız bunların içindəyik, əsl filosof özümüz olmalıyıq. Axı Avropaya gedirik.

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*



# YENİ İLİN GƏLİŞİ

Yeni il hər birimiz üçün yeni başlanğıclar, yeni uğurlar, yeni xəyallar deməkdir. Çoxumuz ilin bitməsini və yeni ilin gəlişini səbirsizliklə gözləyirik. Yeni ilin gəlişini hər xalq öz adət-ənənələrinə görə qeyd edir. Yeni il dedikdə ağlımıza ilk olaraq şam ağacı gəlir. Əvvəllər hər Yeni ildə təbii şam ağacları bəzədilərmiş. Bu gün şam ağacları sünidir.

Yeni ildə hər kəs, ən əsası da uşaqlar böyük həvəslə, sevinclə şaxta baba və qar qızı gözləyirlər. Əlbəttə, hədiyyələri də unutmaq olmaz. Əvvəllər hər il sonu şaxta babanın bizə hədiyyə gətirdiyinə inanırdım. Çünki hər il hədiyyəmi gətirib şam ağacının altına qoyurdu. Sonra öyrəndim ki, şaxta baba atam imiş. Hər il sonu gecə biz yatarkən hədiyyələrimizi şam ağacının altına qoyub, səhər biz oyananda "şaxta babanız sizin üçün hədiyyə qoyub" deyir. Böyük həvəslə hədiyyəmizi götürüb açardıq. Şaxta babanın atam olmasını bilsəm də heç nə dəyişmədi. Hər il eyni qayda ilə şaxta babam hədiyyəmi gətirir və hər il eyni sevinclə də hədiyəmi açıram.

Bizim şaxta babamız var, amma italiyalıların şaxta nənələri var. İtaliyada küçələrdən keçərkən isə diqqətli olmaq lazımdır. Çünki onlar Yeni ildə evdə olan köhnə əşyaları qayda olaraq pəncərədən çölə atırlar. Buna görə də onlar ilin son günü məcbur olmadıqca evdən çıxmırlar. Belə düşünürlər ki, Yeni ili yeni əşyalarla qarşılamaq lazımdır.

Bizdə isə Yeni ilin ilk günü evimizə ilk ayaq basan insanın abu-havası necədirsə bütün ilin elə olacağına inanırlar. Məsələn, evə ilk ayaq basan gözəl xasiyyətli, evli və uşaqlıdırsa, o evdə əgər subay varsa evlənəcək və yaxud da bütün illəri xoş keçəcək. Yox, əgər pis xasiyyətli biri olarsa, bütün ilin pis, uğursuz keçəcəyinə inanırıq. Amma bu düşüncədə olmaq, fikrimcə, düzgün deyil. Çünki insanlar belə bir şeyə inandıqda bütün ili sevincli də yaşaya bilər, kədərli də...

Yeni il bayramı günü hər bir evdə süfrələr bol yeməklər, şirniyyatlarla bəzədilir. İnancımıza görə, süfrəmiz nə qədər bol olsa yeni ildə ruzimiz daha çox olacaq. Buna görə də edə bildikləri qədər süfrədə yeməkləri bol edirlər.

Əsası isə çalışaq bu Yeni ildə qəlb qırmayaq, küsülü qalmayaq. İlk öncə hər birimizə sağlamlıq arzu edirəm! Hər birimizin qəlbi sevincli, süfrələrimiz bol bərəkətli olsun! Qarşıdan gələn Yeni il münasibətilə hər birinizə yeni uğurlar, sağlamlıq arzu edirəm! Yeni iliniz mübarək!

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# İNSANI ÇƏTİNLİKLƏR GÜCLƏNDİRİR



Yeni il çox gözəl bir gündür. Hamı onu qeyd etməyi xoşlayır, çünki bayram günü dostlarla, valideynlərlə və qohumlarla vaxt keçirmək üçün çox gözəl imkandır. Yeni il deyəndə ağıla şam ağacı, hədiyyə, işıqlar, fişənglər, çeşid-çeşid yeməklər, qonaqlar və sair gəlir. İlin sonu yaxınlaşanda hər kəs bu günün gəlməsini səbirsizliklə gözləməyə başlayır, saniyələri sayır. Bu saniyələri sayarkən isə kimisi bu bir ilin ona nələr verdiyini, kimisi də ondan nələr aldığını düşünür.

Bu ömrümdən keçən bir il ərzində bir çox nailiyyətlər, bacarıqlar və ən əsası dəyərli dostlar qazandım. Bu ildə istər təəssüflərim, “kaş ki”lərim, istərsə də “yaxşı ki” dediyim çox şeylər yaşadım. Bütün yaşadıqlarım indi bir anlıq kino lenti kimi yaddaşımdan keçir... Bəzən uğurlarıma görə çoxlu təbriklər aldım və özümü dünyanın ən xoşbəxt insanı hesab etdim. Fərqli-fərqli insanlardan fərqli təbriklər almaq sözün əsl mənasında adamı sevindirir. Bəzənsə elə anlar oldu ki, zamanı dondurmaq istədim, amma zaman öz hökmünü özü verir axı, hakim odur, illər, saniyələr, saatlar onun hökmüylə donur. Pis və ya yaxşı nə varsa zaman hamısını öz kitabcasına aldı və artıq hamısı keçmişdir. Xatirələrdə ya xoş, ya da xatırlanmaq istənməyəcək şəkildə qalır. Amma geridə qoyduğumuz acılı-şirinli günlərlə, anlarla, saniyələrlə bərabər yaşadığımız hər il, hər yaş bizimdir.

Hər keçən il insanın məsuliyyətini daha da artırır. Bu il mənə çox şey verdi. Anladım ki, maddi hər şey aldadıcıdır. Bəli, maddiyat vacibdir, amma həlledici deyil. Nə qədər varlı, amma xoşbəxt olmayan və nə qədər xoşbəxt, amma imkansız insanlar gördüm. İnsanın xoşbəxt olması bahalı avtomobillər, brend geyimlər, son model telefonlardan ibarət deyil. Onların heç biri insanın içindəki boşluğu doldurmur. Xoşbəxtlik bu gün yanında sevdiklərinin olması, öz əməyinlə əldə etdiklərindən duyduğun qürur hissi, xəyalların və gələcəyə gediyin yolda gördüyün gözəlliklərdədir. Səhər doğan günəşin şüaları, parkda əl-ələ gəzən sevgiləri yaşlanmayan yaşlılar, küçədə əlində bir dəstə çiçəklə evə gedən adamlar, axşam günəşin batmasını sevdiyi insanla seyr edənlərdir bu dünyada xoşbəxt olanlar.

Bu dünyada sevgidən güclü heç nə yoxdur. Qəlbində sevgi olan insanın gözündə hər şey gözəldir.

Anladım ki, ətrafındakılara pislik edənlər, arxalarıyca danışanlar, sonra heç nə baş verməmiş kimi üzə gülənlər bədbəxt insanlardır. Belə olan insanlara qarşı ancaq yaxşılıqla cavab vermək, təşəkkür etmək lazımdır. Çünki həmin insanlar xoşbəxt olmadıqları üçün başqalarının həyatını müzakirə edirlər.

Buna görə də arxanızca danışanlara xoşbəxtlik arzu edin. Edin ki, başları özlərinin həyatlarına qarışsın.

Bu həyatda insana düşmən olan tək özüdür. Hər bir şəxs öz həyatı və öz həyatında baş verən hadisələrə görə məsuliyyət daşıyır. Misal üçün, mən kitab oxuyuram və ya oxumuram, mənim imtahan nəticələrim yaxşıdır, ya pis – bunların hamısı mənim şəxsi qərarlarımla bağlıdır, elə deyilmi? Ona görə də əldə etmədiyim bir şey üçün heç kimi günahlandıra bilmərəm. Nə ediriksə – müsbət və ya mənfi – özümüz üçün edirik. Burada kənar bir şəxsin müdaxiləsi yoxdur. Heç kəs sənə deyə bilməz ki, çalışma, irəliyə getmə.

Anladım ki, insan qarşısına çıxan çətinliklər, sınaqlar üçün deyinməməlidir. Hər zaman xeyirlisinin bu olduğunu düşünməlidir. Məhz qarşılaşdığımız o ağır imtahanlardır bizi biz edən. Məhz o çətinliklərdir insanı gücləndirən. Hər bir dərd, problem keçicidir, gəlir və gedir. Sonra geriyə baxdıqda təəccüblənirik ki, necə o çətin, dözülməz vəziyyətdən çıxa bildim, necə hələ də ayaqdayam. Anladım ki, heç vaxt keçmişimizə görə özümüzü qınamamalıyıq. Sadəcə nəticələr çıxarmaq və keçmişə olan qapıyı bağlamalıyıq. İrəlidə isə bizi daim gözəl qapılar gözləyir.

2024-cü il ailəmizlə, dostlarımızla, sevdiklərimizlə sevgi dolu, sağlam, xəyallarımızın gerçəkləşdiyi bir il olsun!

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*



# YAŞAMAQ LAZIMDIR!

Səhər açılır, gecə olur, günlər keçib gedir. Zamanın necə keçib getdiyini hiss etmirik. Hər gün minlərlə insan dünyaya göz açıb ilk nəfəslərini alırlar və yenə minlərlə insan gözlərini sonsuzadək yumub sonuncu nəfəslərini verirlər. Yaşamaq bir anlıqdır, bu gün varıqsa sabah da mütləq olacağıq deyə bir qanun yoxdur. Gözəl və pis hər şeyin bir sonu var, ancaq hər şeyə görə insan yaşamağı bacarmalıdır, çətin olsa belə.

Həmişə biz insanlar asan nə isə axtarırıq, amma bu dünyada asan əldə edilən nəyinsə olmadığını unuduruq. Əgər varsa belə, əmin olun ki, necə asanlıqla əldə etmişiksə, bir o qədər asanlıqla əlimizdən itiririk... Bu dünyada həqiqətən yaşamaq lazımdır, çətinliyi, xoşbəxtliyi, bədbəxtliyi, sevinci, xəyalı, arzusu, səbri, ümidi ilə, ən əsası dözümlülüklə yaşamaq lazımdır. Əgər bir insan hər şeyə rəğmən dözüb yaşaya bilirsə, həmin insan yaşamağı bacarır – səbr etməkdən yorulsa da, ümidsizliyə düşsə də. Bəli, hər yaşın özünə görə problemləri olur, əgər biz bir gənclə qocanın yaşadığı nələrisə müqayisə etsək, təbii ki, qocanın yaşadığı bizə daha təsirli gələr, nəinki gəncin. Amma bu o demək deyil ki, hər bir gəncin həyatı eynidir, hər bir insanın uşaqlığı eyni keçib. Xeyr, çox insan uşaqlıqda yaşadığı hadislərdən dərs çıxarır və gələcəyini onun əsasında qurur, insan səhv etdikdən sonra bir daha o səhvi təkrarlamağa çalışmır.

Yenə yaxşısı və pisi ilə bir ilin sonuna gəldik, dönüb bu ildə yaşadığım hadisələrə baxanda bir çox nələrsə yaşadığımı görürəm. Düzdür, mənimçün bir az çətin və yorğun bir il oldu və bu ilin sonu, deyə bilərəm ki, mən böyüdüm. Öncədən elə zənn edirdim ki, bütün həyatlar bir-birinə bənzəyir, hər kəsin uşaqlığı, yaşadığı hadisələr bir-birindən o qədər də fərqlənmir, ancaq çox təəssüf ki, düşündüyüm kimi deyilmiş. Çox insan tanıdım bu bir il içərisində, həmçinin keşməkeşli həyat hekayələri ilə tanış oldum. Elə insan gördüm üzündə təbəssüm, gözlərində isə həyata ümidlə baxan işıq deyilən bir şey yox idi, ancaq hər şeyə sahib idi. Bununla yanaşı, üzündə daima təbəssüm, gözləri ümid, sevinc dolu insanlar da gördüm – nə qədər çətin həyatları olsa da gülməyi bacarırdılar. Həmin insanlara afərin dedim.

Belə bir ifadə var: yaşayan ölü... Dərsdən evə qayıdarkən metroda yaşlı bir qadın gördüm, vəziyyəti pis idi, hiss olunurdu ki, yaşamaqdan bezib, hər şeydən ümidini itirmiş bir şəkildə idi. Qatar sonuncu dayanacaqda dayandı, qadın nə qədər çətinliklə də olsa ayağa durub qatardan düşdü. Yaxınlaşıb köməyə ehtiyacınız varmı deyə soruşdum. Sakit səslə “əlimdən tutsan pis olmaz” dedi. Əlindən tutub asta adımlarla yeriyirdik. Təcili yardım çağırmağı təklif etdim, ancaq istəmədi, yaxınlarından kiminsə telefon nömrəsini bilib-bilmədiyini soruşdum, üzümə kədərli gözlərlə baxaraq kimsəsiz olduğunu dedi. Bax elə həmin an dünyanın üzdən yaxşı görünüb, amma daxildən nə qədər pis olduğunu bir daha anladım. Qadın sanki yaşayan bir ölü kimi sakitcə əlini əlimdən buraxıb “çox sağ ol, qızım, narahat olma, özüm həll edərəm, sən get” deyib yavaş-yavaş yeriyərək getdi. Qadın gedənə qədər durub baxdım, ətrafdakı səslər bir anlıq yox olmuşdu sanki, həyatın çətinliyi ilə tanış olurdum, yuxu kimi gəlirdi, ancaq yuxu deyildi, elə həyatın özü idi bu...

İnsan sevdiyini itirərkən böyüyürmüş – mənə bu il bunu öyrətdi. Bir çox dost, fərqli düşüncəyə sahib müəllimlər qazandım, amma qazandıqlarımla yanaşı itirdiklərim də oldu – dostumu itirdim, rəfiqəmi, yaxınımı, ən əsası həyata ümid dolu baxan bir gənc qızı. Günlər keçib getdikcə hər kəs unudulur deyirlər, ancaq, Maya, səni heç vaxt unutmayacam. Nə qədər ki yaşayacağam, yalnız özüm üçün deyil, bu dünyada həyat hekayələri yarımcıq qalmış bütün gənc qızların adına yaşayacağam, ömrümün yetdiyi qədər...

Həmişə sevdiklərimizin yanında olaq, onsuz da həyat çətindir, onları tək qoyub daha da çətinləşdirməyək. Kimin nə yaşadığını bilmədən kənardan baxaraq rəy bildirməyək, qəlb qırmayaq. Sizi səsi ilə, nəfəsi ilə, ürəyi ilə qucaqlayan insanların qiymətini bilin. Onlar göydəki ulduzlar kimidirlər. Bir dəfə söndülərsə, bir də heç vaxt işıqlarını görə bilməzsiniz.

Bilmirəm sabah başımıza nə gələcək, amma tək arzum və diləyim sevdiklərimin hər an yanımda olmağı və mənim də həmişə sevdiklərimin ehtiyacı olduqda onların yanında olmağımdır...

Yeni ildə hər kəsə ilk öncə sağlamlıq və sonsuz xoşbəxtlik diləyirəm, sonrası isə öz əlimizdədir, nə qədər çalışsaq bir o qədər çox nələrəsə nail ola bilərik. Ümidinizi itirməyin, daima gülümsəyin və sevinc dolu qalın.

**Alina Fətullayeva**
*Nizami Gəncəvi adına Beynəlxalq Elmlər Akademiyasının hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

Çənlibeli görə bilmədiyinə görə Koroğlunun kədərlənməsi daha çox təəssürat oyadıcıdır. Belə ki, dağlar elə bil ki, aranı kəsmişdi. Aşığa o qalır ki, öz kədərini bu cür ifadə etsin:

**Göydən bir cüt sona endi,**
**Aylı dağın arasına.**
**Yar ki, yardan küsər oldu,**
**Ağlar, sızlar, çarası nə?**

**Qızıl almanı dişləsin,**
**Ətrafını gümüşləsin,**
**Yol düşsün, karvan işləsin**
**Nigar yarın obasına** (Bax: "Koroğlu", səh. 556; "ქოროღლი", səh. 580).

Aydındır ki, gətirilən bəndlərdə qəhrəmanın, o cümlədən Koroğlunun təsəvvürü ilə Çənlibel dağı ona öz istəklisi, can atdığı Nigar xanımı xatırladır. Lakin eləcə də gözə çarpandır ki, şair dağları canlı varlıq olaraq düşünür və təsvirdə öz sevgilisini bilir. Bu cür qavrayışın paralelizmi aşıq poeziyası üçün yad deyildir.

Lakin Çənlibel dağlarına baxanda Koroğlunun dərdi daha faciəvi məqam kəsb edir və anlayır ki, gerçəklik onu uzaqlaşdırıb və dağlar da, öz məsləkdaşları da, öz yarı da aranı kəsmişdir. O, qüssəsini sazın iniltisi ilə ovundurur:

**Uzaq-uzaq dağ başında**
**Tala-tala qar görünür.**
**Nə dəlilər, nə Çənlibel,**
**Nə alagöz yar görünür.**

**Ətrafım tir, kaman, oxdu,**
**Dəlilər yanımda yoxdu,**
**Mən yalqızam, düşman çoxdu,**
**Qaçmaq mənə ar görünür.**
**...**
**Bu sinəm yaralı düşdü,**
**Dağların maralı düşdü,**
**Yar məndən aralı düşdü,**
**Tərlan uçmaz, sar görünür.**

**Koroğlunun məlul çağı,**
**Durulmaz kefi, damağı,**
**Bar gətirib gürcü bağı,**
**Dal budaqda nar görünür** (Bax: "Koroğlu", səh. 557; "ქოროღლი", səh. 580-581).

Bu geniş çıxarışı ona görə gətirdim ki, burada yenə də başı qarlı dağlar yarın və dəlilərin uzaqlığı ilə müqayisə olunur. Buna tək qalmış igidin qüssəsi də əlavə olunur ki, onun məsləkdaşları yoxdur və düşmən isə tədricən artır. Onun sinəsi isə yaralıdır. Burada aşıq poeziyasının obrazlılığını üzərə çıxaran rəngkarlıq mənzərəsi verilmişdir: yaralı igid, dağların düşən maralı, indi məqam yetişib, tərlan uçmaz, sarlar isə süzürlər və yaxud namərdlər – nakişilər sərbəstlik edirlər. Elə burada gürcü oxucusu ictimaiyyəti üçün birini deyəcəyəm. Reallıqdan qidalanan cizgi: onsuz da kədərlənmiş Koroğlunun dərdini gürcü bağından uzaq düşməklik artırır və bu ürək ağrısı artıq ənənəvi olaraq qanuniləşmiş idiomatik kəlmə ilə ifadə olunub: Dal budaqda nar görünür və gülümsəyir. Qeyd etmək lazımdır ki, bu cizginin reallığından və gerçəkliyindən daha bir fakt da xəbər verir: başqa halda da Koroğlu Tanrıdan diləyir ki, Kaxetdə bir bağı olsun. Bax, budur:

**Tanrıdan dövlət istərəm:**
**Kaxetdə bir bağım ola!..**
**İçində mərmər hovuzu,**
**Üç güllü otağım ola!..** (Bax: "Koroğlu", səh. 182; "ქოროღლი", səh. 210).

Müəyyən olunur ki, gürcü, o cümlədən Kaxet bağının zənginliyi və gözəlliyi aşıq üçün yad deyildir. Bunu da ki, həqiqi fakt təsdiqləyir: "Koroğlu"nun mənim tədqiqat obyektim olan mətni Gürcüstan təbiətini yaxşı tanıyan və onunla bilavasitə əlaqəsi olan azərbaycanlı aşıq tərəfindən yaradılmışdır. Mənim fikrimcə, bu qəhrəmanlıq eposu Gürcüstanda da böyük populyarlığa malik idi.

Elə burada Nigar xanımın dağlara müraciətini və oğulluğu Eyvazı itirdiyinə görə oğul deyib ağladığını, dağ çəkib dağladığını əlahiddə şəkildə xatırlamaya bilmərəm:

**Başı ərşə duran dağlar,**
**Dağlar, Eyvazı neylədiz?!**
**Üç igidi udan dağlar,**
**Dağlar, Eyvazı neylədiz?!**

**Oğul deyib ağlaram,**
**Dağ çəkərəm, dağlaram,**
**Coşub qılınc bağlaram,**
**Dağlar, Eyvazı neylədiz?!**

**Mən Nigaram, ah çəkərəm,**
**Daşın çaylara tökərəm,**
**Yerində bürc-bar tikərəm,**
**Dağlar, Eyvazı neylədiz?!** (Bax: "Koroğlu", səh. 235; "ქოროღლი", səh. 258).

Nigar xanımın bu çoşqunluğu və cəsurluğu, dağlara müraciəti və onları günahlandırması bizə Dirsə xanın xatınının dərdinin dəhşətini və Qazılıq (Qafqaz) dağlarını lənətləməsini və hədələməsini xatırladır. Bu iki xatının oğullarını itirməklə düçar olduğu kədərin və onların mənəvi-cəsarətinin oxşar olması və az qala eyniliyi təəccüblü deyildir. Çünki Dədə Qorqudun və Koroğlunun yaradıcılığının bir mənəvi-əxlaqi və estetik əsası vardır. O da təəccüblü deyildir ki, əsərin qəhrəmanları üçün dağ və təbiətin böyük əhəmiyyəti vardır. Qafqazlılar və Qafqazın sakinləri üçün Qafqaz dağı təkcə yaşayış yeri deyil, eləcə də əxlaq və həyat tərzini formalaşdıran bir növ sitayiş, istərsə də büt idi ki, bu da ən qədim dini inancla da bərqərar olunub. Qısası, qafqazlılar üçün dağ kədər, eləcə də ümid gətiricidir. Bax, buna görə də başı yarılmış, əl-ayağı bağlanmış, ümidsiz qalmış Koroğlu Çənlibelin qoşa təpələrinə baxanda ürəyi qubar elədi. Dedi:

**Qarşı yatan qarlı dağlar,**
**Dağlar, səndə qarım qaldı.**
**Əlim çatmaz, ünüm yetməz,**
**Dal budaqda narım qaldı.** (Bax: "Koroğlu", səh. 510; "ქოროღლი", səh. 534).

Elə burada əlahiddə qeyd etməliyəm ki, Azərbaycan, ümumiyyətlə, Qafqaz xalqlarının ev heyvanlarına, istərsə də çöl heyvanlarına qarşı, ələlxüsus isə ata qarşı dəhşətli dərəcədə zərif münasibəti möhkəm ənənədir. Demək mümkündür ki, at Qafqaz igidinin sədaqətli və ayrılmaz dostudur. Koroğlu üçün isə Qırat həyat və iki gözdür ki, onun da dəyəri yoxdur (Bax: "Koroğlu", səh. 286-288; "ქოროღლი", səh. 326-327). Koroğlunun möhkəm inamına görə, "At igidin qardaşıdır". Bu kəlməni hər bəndin sonunda rədif olaraq təkrarlayır və bununla öz fikrinin toxunulmazlığını möhkəmləndirir (Bax: "Koroğlu", səh. 289; "ქოროღლი", səh. 329-330). Bir sözlə, Qıratın, Düratın, ümumiyyətlə, atın, sədaqətli məsləkdaş olaraq tərifi, demək olar ki, bütün mübarizə istəyini oyadan qoşmada da eşidilir. Lakin bu barədə sözümü daha davam etdirməyəcəyəm. Yalnız qeyd edirəm ki, atın tərifini və mədhini təkcə döyüş zamanı onun şəksiz və labüd amil deyil, eləcə də, ümumiyyətlə, qafqazlıların gündəlik həyat-məişətinin münasib və əlverişli funksiyası da şərtləndirmişdir ki, bu da igidlərdə, ümumiyyətlə, xalqda bu cür fikri və inancı bərqərar etmişdir: "Mərd igidin atı candan əzizdir" (Bax: "Koroğlu", səh. 117; "ქოროღლი", səh. 152).

Yuxarıda artıq qeyd etdim ki, təhlil olunan eposun bütün qoşquları qoşma və gəraylı formasında yazılıb və aşıq poetik düşüncəsinin tipik nümunəsidir. Müvafiq olaraq bu qoşqular toxumasında aşıq və xalq boyası, obrazları naxışlanır. Məsələn, pəhləvanların sayını və mərdliyini verən zaman şiri-nər, ağ qurd, aslan, ayı, ceyran və sair həddindən artıqdır. Mənəviyyatın hökmranlığını çıxarmaq üçün isə quşlar: qartal, şahin, tərlan, qarğa və sair... Nümunə üçün bir neçə çıxarışın gətirilməsi üzərində dayanacağıq: Dəmirçioğlu döyüşdən qabaq özünü belə tərifləyir:

**...Mənəm şiri-nər tək meydanda gəzən,**
**Xışm ilə düşmənin bağrını əzən,**
**Tülək tərlan kimi havada süzən,**
**Sonra yaxan keçə ələ, pəhləvan!..** (Bax: "Koroğlu", səh.120-121; "ქოროღლი", səh. 156).

Başqa yerdə yenə Koroğlu yaxşı igidin xüsusiyyətlərini sadalayır: yağılarla meydan açmalı, nərə çəkib ortaya atılmalı və düşmən qabağından qaçmalı, təslim deyib qəniminə enməməli, əcəl çağı yoldaşından dönməməli, meydanda qızmış aslan kimi olmalıdır.

**Qoç Koroğlu meydan açıb öyünü,**
**Namərd sinəsinə çəkər düyünü.**
**Ağ qurdlardan saldırmağa qoyunu**
**Qurd ağızlı qoçaq oğlan gərəkdi** (Bax: "Koroğlu", səh. 303-304; "ქოროღლი", səh. 345).

Koroğlu onunla da qürurlanır ki, məsləkdaş olaraq qurdları var, ayıları var (Bax: "Koroğlu", səh. 310; "ქოროღლი", səh. 352). Belə ki, onun hay vurması ilə şəhər dağıdar. Dəli (Dəmirçioğlu) özünü pələnglə müqayisə edir (Bax: "Koroğlu", səh. 125; "ქოროღლი", səh. 161).

Aydındır ki, o öz məsləkdaş pəhləvanlarını üzərə çıxarmaq üçün yuxarıda adı çəkilən ovlardan istifadə edir, lakin atın mərdliyindən və qaçışından söz düşəndə onu ceyrana və tərlana bənzədir ki, (Bax: "Koroğlu", səh. 312; "ქოროღლი", səh. 355) bu da heç də nadir hallarda olmayaraq yarın gözəlliyinin və zərifliyinin ifadəçisidir (Bax: "Koroğlu", səh. 105; "ქოროღლი", səh. 140).

Yuxarıda xatırlanan heyvanların və quşların adlarının çəkilməsində təbiətin müvafiq funksiyasının yükü vardır ki, bu da bir çox əsrlər boyu xalqın təcrübəsi ilə yaradılmış və bərqərar olmuşdur. Aydındır ki, bu cür rəngkarlıq bilavasitə folklor ilə əlaqədardır ki, bu da bizə təzadlı mənzərə təklif edir və paralelizmin ziddiyyət səviyyəsində adi sxemlə üzərə çıxır: güclü-zəif, yüksək-alçaq, gözəl-eybəcər və sair. Bu ziddiyyətlərin fərqli keyfiyyətə malik pillələrini alırıq. Bax, bu cür qavrayışın nümunəsi:

**Sərçəyə bax, qaraquşa don biçər,**
**Mərd igidlər dolu badələr içər.**
**Namərd adam dava günündə qaçar,**
**Gedər daldalarda pəhləvan olu.**

**Dəmirçioğluyam, qorxmaram mərddən,**
**Tülkü deyər, aslan qovaram yurddan,**
**Bir keçi qaçıban qurtulsa qurddan,**
**Baxar buynuzuna kərkədan olu** (Bax: "Koroğlu", səh. 121; "ქოროღლი", səh. 156).

Qısası, bu müqayisə metodu stereotip kəlmə olaraq, istərsə də formal olaraq yarandı və aşıq poeziyasını xarakterizə edən səciyyəyə çevrildi. Verilən konkret halda da o, qoşmanın strukturun ayrılmaz ünsürlərindən biri olaraq üzərə çıxır və şeirin rəngkarlığının bir, heç əhəmiyyətsiz olmayan rəngidir ki, bu da, deyərdim ki, onun bədii palitrasını zənginləşdirir. Budur, onlardan bəziləri: "Yüz min tülkü bir aslana neyləyər?" (Bax: "Koroğlu", səh. 123; "ქოროღლი", səh. 159), "Qarğalar neyləyər laçına?" (Bax: "Koroğlu", səh. 377; "ქოროღლი", səh. 402), "Min tülkü neyləyər bir ac aslana" (Bax: "Koroğlu", səh. 519; "ქოროღლი", səh. 543). "Tülək tərlan qürbət eldə sar ola" (Bax: "Koroğlu", səh. 105; "ქოროღლი", səh. 140) və sair.

*(davamı gələn sayda)*

***Gürcü dilindən tərcümə edən:***
***Mirzə Məmmədoğlu***

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ახალი თაობა" საზოგადოებრივი გაზეთი **HAQQIN SÖZÜ – SÖZÜN HAQQI**

**31 DEKABR 2023-CÜ İL № 024 (195)**

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

## GÜRCÜSTANIN ÖZƏL UNİVERSİTETLƏRİNİN GƏLİRLƏRİ AÇIQLANIB



Gürcüstanın özəl ali təhsil ocaqları 2022-ci il üzrə fəaliyyət və gəlir hesabatlarını dərc ediblər. Sənəddən aydın olur ki, son bir ildə aparıcı ali təhsil müəssisələrinin ümumi gəlirləri 210 milyon laridir, bu müəssisələrin gəlirlərinin illik artımı 14 faizi ötüb ki, bu da, ilk növbədə onların əcnəbi tələbələri cəlb etməsi ilə bağlıdır. Bu baxımdan ən tələb olunan istiqamət yenə də xarici dildə tibb və biznes menecmentidir. Bununla yanaşı universitetlər gürcüdilli kurslarla müqayisədə xarici dildə olan kurslar üçün əhəmiyyətli dərəcədə yüksək təhsil haqqı tələb edirlər.

Gürcü tələbələrə gəldikdə, universitetlərin qiymət dəyişikliyi nisbətən kiçikdir və hətta ən bahalı kurslarda belə ildə 9 min laridən artıq təşkil etmir, xarici dil fakültəsi üçün yuxarı qiymət kateqoriyası 10-12 min dollardır. Ona görə də gəlirləri artırmaq üçün ali təhsil müəssisələri əcnəbi tələbələrin cəlb edilməsinə üstünlük verirlər. Rəsmi statistika da bunu göstərir, əgər 2021-2022-ci tədris ilində özəl ali məktəblərdə 17 min əcnəbi tələbə təhsil alırdısa, 2022-2023-cü tədris mövsümündə bu rəqəm artıq 25 min olub. Bu da 47 % artım deməkdir. Nəticədə xarici vətəndaşlar özəl ali məktəblərin ümumi kontingentinin 15,5 %-ni (161 min tələbə) təşkil edir.

Yayımlanmış maliyyə hesabatına görə, özəl təhsil müəssisələri arasında ən böyük gəlir Gürcüstan Universitetinin payına düşür. Universitet ötən il gəlirləri 17 milyon laridən 53,9 milyon lariyə qədər (artım 46 %) artıra bilib. İkinci yerdə Qafqaz Universiteti durur, onun 32 milyon lari gəliri var (artım 51 %).

Ən gəlirli ali təhsil müəssisələrinin böyük qismi 2022-ci ilin maliyyə nəticələrini artıq yayımlayıb, **digər universitetlərin nəticələri aşağıdakı kimidir:**

Gürcüstan Universiteti – 53,920,000 lari;
Qafqaz Universiteti – 32,052,497 lari;
Azad Universitet – 21,456,000 lari;
SEU (2021-ci il) – 21,096,000 lari;
Beynəlxalq Qafqaz Universiteti – 17,954,000 lari;
Avropa Universiteti (2021-ci il) – 17,392,000 lari;
Gürcü-Amerika Universiteti – 16,488,570 lari;
Qriqol Robakidze Universiteti – 13,030,732 lari;
BTU – 8,779,662 lari;
İBSU – 7,144,086.

*Mənbə: bm.ge*

## ÖTƏN İL 83 MƏKTƏBYAŞLI QIZ ABORT ETDİRİB



Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, 2022-ci ildə azyaşlılar arasında (17 yaşa qədər yeniyetmələrdən söhbət gedir) 83 abort halı qeydə alınıb.

Səhiyyə Nazirliyinin göstəricilərinə əsasən, azyaşlılar arasında ən çox abort halı 2017-ci ildə qeydə alınıb və onların sayı 171 təşkil edib. Ən az göstərici isə 70 hal olmaqla 2021-ci ildə qeydə alınıb.

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTANDA ELEKTRİK ENERJİSİ İSTEHLAKI AZALIB



Cari ilin yanvar-noyabr aylarında Gürcüstanda elektrik enerjisi istehlakı 2022-ci ilin 11 ayının göstəriciləri ilə müqayisədə 7,7 faiz azalaraq 12,4 milyard kilovat-saat təşkil edib. Bu barədə Gürcüstanın Elektrik Bazarı Operatoru (ESCO) məlumat yayıb.

Məlumatda bildirilir ki, hesabat dövründə Gürcüstanda ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə 0,7 faiz çox – 13,2 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib. Bunun böyük hissəsi su elektrik stansiyalarının payına düşür – 10,1 milyard kilovat-saat.

ESCO-nun məlumatına görə, 2023-cü ilin əvvəlindən Gürcüstan rekord həddə elektrik enerjisi ixrac edib. Yanvar-noyabr aylarında ixrac 51,2 faiz artaraq 1,5 milyard kilovat-saata çatıb. Elektrik enerjisi əsasən Türkiyəyə ixrac olunub ki, bu da bütün ixracın 88,8 faizinə bərabərdir.

Bununla yanaşı, həmin dövrdə Gürcüstan qonşu ölkələrdən – Rusiyadan 678,4 milyon kilovat-saat, Azərbaycandan isə 3,29 milyon kilovat-saat elektrik enerjisi idxal edib.

## GÜRCÜSTANA XARİCDƏN PULKÖÇÜRMƏLƏRİN HƏCMİ ARTIB



Bu ilin 11 ayı ərzində Gürcüstana pulköçürmələrin həcmi 3 milyard 814 milyon 800 min dollar təşkil edib.

"Yeni Yol" "Sputnik Qruziya"ya istinadən xəbər verir ki, bu, ötən illə müqayisədə 6,2 faiz çoxdur.

Məlumata görə, Rusiyadan ənənəvi köçürmənin məbləği 1 milyard 452 milyon 800 min dollar olub. Bu isə ümumi məbləğin 38,1 faizini təşkil edib.

Bildirilib ki, hesabat dövründə Gürcüstandan xaricə 321 milyon 900 min dollar köçürmə edilib. Bu da ötənilki göstəricidən 3,9 faiz yüksəkdir.

## 2024-CÜ İLDƏ GÜRCÜSTAN ƏHALİSİNİN 93 FAİZİ TƏBİİ QAZDAN İSTİFADƏ EDƏ BİLƏCƏK



Gürcüstan regionlarının qazlaşdırılması prosesi 2024-cü ildə də davam etdiriləcək. 2024-cü ildə ölkə əhalisinin təxminən 93 faizi təbii qazdan istifadə edə biləcək. Bu barədə Gürcüstan Baş naziri İrakli Qaribaşvili hökumətin birillik fəaliyyəti ilə bağlı hesabat verərkən deyib.

Onun sözlərinə görə, 2012-ci ilə qədər ölkə əhalisinin təxminən 55 faizi, yəni 700 minə yaxın abonent qaz alırdı, hazırda isə ölkədə 1 milyon 500 min abonent var.

Baş nazir deyib ki, son 11 ildə ölkənin regionlarının qazlaşdırılmasına 500 milyon lariyə qədər vəsait ayrılıb.

Qeyd edək ki, Gürcüstan istehlak etdiyi təbii qazın böyük bir hissəsini Azərbaycandan alır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maariflәndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.